

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 20 (20.921)

*1 fevral 2014-cü il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymətі 20 qəpik


## Naxçıvan Muxtar Respublikası gənclərinin təltif edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında elm, mətbuat, idman sahələrində və hüquq mühafizə orqanlarında səmərəli fəaliyyətlərinə görə:

Hüseynzadə Əkrəm Rüfət oğlu

Məmişov Ramal Xalıxverdi oğlu

Sevdimalıyev Urfan Adil oğlu – **“Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə”** nişanı;

İsmayılova Aytən Malik qızı

Həmzəyev Elvin Natiq oğlu

Hüseynli Fərqanə Salman qızı

Məmmədov Rəcəb Zehralı oğlu – **“Rəşadətli əməyə görə”** nişanı ilə təltif edilsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 1 fevral 2014-cü il*

## “2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram”ın təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

2014-cü ildə Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyi tamam olur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2013-cü il dekabrın 28-də keçirilən dördüncü çağırış səkkizinci sessiyasında 2014-cü il muxtar respublikada muxtariyyət ili elan olunmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 14 yanvar tarixli Sərəncamına əsasən, muxtar respublikanın 90 illik yubileyi dövlət səviyyəsində qeyd olunacaqdır.

Azərbaycanın dövlətçilik tarixində mühüm rolu olan Naxçıvan şəhəri muxtar respublika yarandığı gündən onun paytaxtına çevrilmiş, ötən 90 il ərzində xeyli inkişaf etmiş, burada ən müasir şəhər infrastrukturu formalaşmışdır. Xüsusilə Azərbaycan müstəqillik qazandıqdan sonrakı illər ərzində həyata keçirilən islahatlar nəticəsində Naxçıvan şəhərində yeni iş yerləri və müəssisələr yaradılmış, kommunal xidmət və sosial infrastruktur təminatının həcmi və keyfiyyəti artırılmış, şəhər əhalisinin məşğulluq səviyyəsinin yüksəldilməsinə nail olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq, Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafını təmin etmək məqsədi ilə **qərara alıram:**

“2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram” təsdiq edilsin (əlavə olunur).

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 31 yanvar 2014-cü il*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

# 2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə PROQRAM

| S/№ | Tədbirin adı | İcra müddəti | İcraçılar |
|---|---|---|---|
| | **İnzibati binaların tikintisi və təmiri** | | |
| 1. | Naxçıvan şəhərinin Qaraçuq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyi üçün inzibati binanın tikintisi | 2014-cü il | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Naxçıvan Şəhər İcra Hakimiyyəti |
| 2. | Naxçıvan şəhərinin Qaraçuq kəndində xidmət mərkəzinin tikintisi | 2014-cü il | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Naxçıvan Şəhər İcra Hakimiyyəti |
| 3. | Naxçıvan şəhərinin Bulqan kəndində kənd mərkəzinin tikintisi | 2014-cü il | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Naxçıvan Şəhər İcra Hakimiyyəti |
| 4. | Naxçıvan şəhərinin Bulqan kəndində xidmət mərkəzinin tikintisi | 2014-cü il | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Naxçıvan Şəhər İcra Hakimiyyəti |
| | **Rabitə** | | |
| 5. | “Evədək optika” layihəsi çərçivəsində internetə genişzolaqlı qoşulma, İP TV və telefon xidmətlərinin daha da genişləndirilməsi, simsiz internet şəbəkəsinin ən müasir texnologiyalar əsasında inkişaf etdirilməsi | 2014-2015-ci illər | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi |
| | **İstilik, su təchizatı və kanalizasiya** | | |
| 6. | Naxçıvan şəhərində kəhrizlərin təmirinin davam etdirilməsi | 2014-2015-ci illər | Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi |
| 7. | Naxçıvan şəhərində su-kanalizasiya qurğularının tikintisinin başa çatdırılması | 2014-2015-ci illər | Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi |
| 8. | İctimai yaşayış binalarında istilik, su-kanalizasiya sistemlərinin yenidən qurulması və müasirtipli fərdi qazanxanaların tikintisi | 2014-2015-ci illər | Naxçıvan Şəhər İcra Hakimiyyəti |
| | **Elektrik enerjisi və qaz təchizatı** | | |
| 9. | Naxçıvan şəhərində 10 və 0,4 kilovoltluq hava elektrik verilişi xətlərinin müvafiq gərginlikli kabel xətləri ilə əvəz edilməsi | 2014-2015-ci illər | Dövlət Energetika Agentliyi |
| 10. | Naxçıvan şəhərində “Smart-kart” tipli elektrik və qaz sayğaclarının quraşdırılması | 2014-2015-ci illər | Naxçıvan Şəhər İcra Hakimiyyəti, Dövlət Energetika Agentliyi, Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsi |
| | **Yol təsərrüfatı və nəqliyyat** | | |
| 11. | Naxçıvan şəhərinin küçələrində və Xətai məhəlləsində asfalt örtüyün bərpası və abadlıq işlərinin aparılması | 2014-2015-ci illər | Naxçıvan Şəhər İcra Hakimiyyəti |
| 12. | İslam Səfərli küçəsində avtomobil parkının tikintisi | 2014-cü il | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Naxçıvan Şəhər İcra Hakimiyyəti |
| 13. | Naxçıvan şəhərinin Qaraçuq, Bulqan, Qaraxanbəyli kəndlərində mərkəzi yolların asfalt örtüyünün təmir və abadlaşdırma işlərinin aparılması | 2014-cü il | Naxçıvan Şəhər İcra Hakimiyyəti |
| 14. | Naxçıvan şəhərdaxili nəqliyyatında işləyən avtobusların beynəlxalq standartlara cavab verən müasir avtobuslarla əvəz olunması | 2014-2015-ci illər | Nəqliyyat Nazirliyi |
| 15. | Naxçıvan şəhərində nəqliyyatın sıx olduğu yerlərdə piyada keçidlərinin yaradılması | 2014-2015-ci illər | Nəqliyyat Nazirliyi, Naxçıvan Şəhər İcra Hakimiyyəti |
| 16. | Naxçıvan şəhərində ictimai nəqliyyat üçün yeni dayanacaqların quraşdırılması | 2014-2015-ci illər | Nəqliyyat Nazirliyi, Naxçıvan Şəhər İcra Hakimiyyəti |
| | **Yaşıllaşdırma və abadlıq** | | |
| 17. | Naxçıvançay vadisində parkın tikintisinin başa çatdırılması | 2014-cü il | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi |
| 18. | Naxçıvan şəhərində yeni istirahət parklarının qurulması və yaşıllıq sahələrinin artırılması | 2014-2015-ci illər | Naxçıvan Şəhər İcra Hakimiyyəti |
| 19. | İslam Səfərli küçəsində yenidənqurma işlərinin aparılması | 2014-cü il | Naxçıvan Şəhər İcra Hakimiyyəti |
| 20. | Əliabad qəsəbəsində quruculuq və abadlıq işlərinin başa çatdırılması | 2014-cü il | Naxçıvan Şəhər İcra Hakimiyyəti |
| 21. | Şəhərətrafı qəsəbə və kəndlərdə bağçılıq təsərrüfatının genişləndirilməsi | 2014-2015-ci illər | İqtisadi İnkişaf Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi |
| | **Gənclər və idman** | | |
| 22. | Gənclər Mərkəzinin tikintisinin başa çatdırılması | fevral, 2014-cü il | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi |
| | **Təhsil** | | |
| 23. | Naxçıvan şəhər 11 nömrəli tam orta məktəbin tikintisinin başa çatdırılması | 2014-cü il | Təhsil Nazirliyi, Naxçıvan Şəhər İcra Hakimiyyəti |
| 24. | “İstiqlal” küçəsində yeni uşaq bağçasının tikintisi | 2014-cü il | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Naxçıvan Şəhər İcra Hakimiyyəti |
| 25. | Naxçıvan şəhərinin Qaraçuq kəndində 9 nömrəli tam orta məktəbin əsaslı təmiri | 2014-cü il | Təhsil Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Naxçıvan Şəhər İcra Hakimiyyəti |
| 26. | Naxçıvan Özəl Universiteti üçün tədris, inzibati və yataqxana binalarından ibarət Kompleksin tikintisi | 2014-cü il | Naxçıvan Özəl Universiteti, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi |
| 27. | Naxçıvan Dövlət Universitetinin baytarlıq ixtisası üçün binanın yenidən qurulması | 2014-cü il | Naxçıvan Dövlət Universiteti, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi |
| 28. | Naxçıvan Dövlət Universitetinin Poliklinikasının yenidən qurulması | 2014-cü il | Naxçıvan Dövlət Universiteti, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi |
| | **Səhiyyə** | | |
| 29. | Naxçıvan şəhərinin Qaraçuq kəndində həkim ambulatoriyasının tikintisi | 2014-cü il | Səhiyyə Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Naxçıvan Şəhər İcra Hakimiyyəti |
| 30. | Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının yenidən qurulması | 2014-cü il | Səhiyyə Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi |
| 31. | Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzi üçün binanın tikintisi | 2014-cü il | Səhiyyə Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi |
| 32. | Naxçıvan Muxtar Respublika Xəstəxanasının yenidən qurulması | 2014-2015-ci illər | Səhiyyə Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi |
| 33. | Naxçıvan şəhərində bitkiçilik və heyvandarlıq sahələri üzrə əczaxananın yaradılması | 2014-2015-ci illər | İqtisadi İnkişaf Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Baytarlıq Xidməti |

*Ardı 2-ci səhifədə*

| | | | |
|---|---|---|---|
| **Mədəniyyət** | | | |
| 34. | Naxçıvan şəhərində “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində tikinti-bərpa işlərinin başa çatdırılması | 2014-cü il | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Naxçıvan Şəhər İcra Hakimiyyəti |
| 35. | Bayraq Meydanının və Fəxri Xiyabanın tikintisinin başa çatdırılması | 2014-cü il | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Naxçıvan Şəhər İcra Hakimiyyəti |
| 36. | Naxçıvançay vadisində Uşaq Əyləncə Mərkəzinin tikintisi | 2014-cü il | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi |
| 37. | Naxçıvan şəhərində müasir hamam kompleksinin tikintisi | 2014-cü il | Naxçıvan Şəhər İcra Hakimiyyəti |
| 38. | Kalbalıxan küçəsində Şəhidlər Muzeyinin tikintisi | 2014-cü il | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Naxçıvan Şəhər İcra Hakimiyyəti |
| 39. | Naxçıvan şəhərinin Qaraçuq kəndində musiqi məktəbinin yenidən qurulması | 2014-cü il | Mədəniyyət və Turizm Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Naxçıvan Şəhər İcra Hakimiyyəti |
| 40. | Naxçıvan şəhərində ənənəvi sənətkarlıq sahələrinin bərpası və inkişafının dəstəklənməsi | 2014-2015-ci illər | İqtisadi İnkişaf Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi |
| 41. | Uşaq İncəsənət Məktəbi üçün yeni binanın tikintisi | 2014-2015-ci illər | Mədəniyyət və Turizm Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi |
| 42. | 2 nömrəli Uşaq Musiqi Məktəbi üçün yeni binanın tikintisi | 2014-2015-ci illər | Mədəniyyət və Turizm Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi |
| 43. | Cəmşid Naxçıvanskinin ev-muzeyi yerləşən binanın yenidən qurulması | 2014-2015-ci illər | Mədəniyyət və Turizm Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi |
| 44. | Adil Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanasının əsaslı təmiri | 2014-2015-ci illər | Mədəniyyət və Turizm Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi |
| **Yaşayış sahələrinin tikintisi və təmiri** | | | |
| 45. | Naxçıvan şəhərinin Əziz Əliyev küçəsində yeni yaşayış kompleksinin tikintisi | 2014-2015-ci illər | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Naxçıvan Şəhər İcra Hakimiyyəti |
| 46. | Naxçıvan şəhərində ictimai yaşayış binalarının fasad və dam örtüklərinin təmirinin davam etdirilməsi | 2014-2015-ci illər | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Naxçıvan Şəhər İcra Hakimiyyəti |
| 47. | M.K.Atatürk küçəsində 9 nömrəli yaşayış binasının tikintisinin başa çatdırılması | 2014-cü il | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi |
| 48. | Kazım Talıblı küçəsində ictimai yaşayış binasının tikintisi | 2014-cü il | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Naxçıvan Şəhər İcra Hakimiyyəti |
| 49. | Atabəylər məhəlləsində yeni ictimai yaşayış binalarının tikintisi | 2014-2015-ci illər | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi |
| 50. | M.K.Atatürk küçəsində 5 nömrəli ictimai yaşayış binasının əsaslı təmiri | 2014-cü il | Naxçıvan Şəhər İcra Hakimiyyəti |
| 51. | Heydər Əliyev prospektindəki yeni ictimai yaşayış binasının tikintisinin başa çatdırılması | 2014-cü il | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi |
| 52. | Əziz Əliyev küçəsində 20 və 30 mənzildən ibarət A nömrəli və 30 mənzildən ibarət B nömrəli ictimai yaşayış binalarının tikintisinin başa çatdırılması | 2014-cü il | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Naxçıvan Şəhər İcra Hakimiyyəti |

| | | | |
|---|---|---|---|
| **Kiçik və orta sahibkarlığın inkişafının dəstəklənməsi** | | | |
| 53. | Əliqulu Qəmküsar küçəsində Sənaye Kompleksinin tikintisinin dəstəklənməsi | 2014-2015-ci illər | İqtisadi İnkişaf Nazirliyi |
| 54. | Naxçıvan şəhərində uşaq bezi istehsalı sahəsinin yaradılmasının dəstəklənməsi | 2014-cü il | İqtisadi İnkişaf Nazirliyi |
| 55. | Naxçıvan şəhərində köynək istehsalı sahəsinin yaradılmasının dəstəklənməsi | 2014-cü il | İqtisadi İnkişaf Nazirliyi |
| 56. | Naxçıvan şəhərində konserv taraları, ətin konservləşdirilməsi və ət qovurması istehsalı sahəsinin yaradılmasının dəstəklənməsi | 2014-cü il | İqtisadi İnkişaf Nazirliyi |
| 57. | Naxçıvan şəhərində unlu-qənnadı istehsalı sahəsinin yaradılmasının dəstəklənməsi | 2014-cü il | İqtisadi İnkişaf Nazirliyi |
| 58. | Naxçıvan şəhərində melamin lövhə, laminat örtüklü iş masası lövhəsi və PVC örtüklü parlaq lövhə istehsalı sahəsinin yaradılmasının dəstəklənməsi | 2014-cü il | İqtisadi İnkişaf Nazirliyi |
| 59. | Naxçıvan şəhərində pet taraların yenidən emalı və bərk band istehsalı sahəsinin yaradılmasının dəstəklənməsi | 2014-2015-ci illər | İqtisadi İnkişaf Nazirliyi |
| 60. | Naxçıvan şəhərində diş pastası istehsalı sahəsinin yaradılmasının dəstəklənməsi | 2014-2015-ci illər | İqtisadi İnkişaf Nazirliyi |
| 61. | Naxçıvan şəhərində silikon yastıq, yorğan və yaylı döşək istehsalı sahəsinin yaradılmasının dəstəklənməsi | 2014-2015-ci illər | İqtisadi İnkişaf Nazirliyi |
| 62. | Naxçıvan şəhərində toxumçuluq təsərrüfatının yaradılmasının dəstəklənməsi | 2014-cü il | İqtisadi İnkişaf Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi |
| 63. | Naxçıvan şəhərində kafel və metlax istehsalı sahəsinin yaradılmasının dəstəklənməsi | 2014-2015-ci illər | İqtisadi İnkişaf Nazirliyi |
| 64. | “Cahan” AVM üçün yeni binanın tikintisinin dəstəklənməsi | 2014-2015-ci illər | İqtisadi İnkişaf Nazirliyi |
| 65. | Naxçıvan “Alt Trikotaj” Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin bərpasının dəstəklənməsi | 2014-2015-ci illər | İqtisadi İnkişaf Nazirliyi |
| 66. | “Naxçıvan Xalça” Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin genişləndirilməsinin dəstəklənməsi | 2014-2015-ci illər | İqtisadi İnkişaf Nazirliyi |
| 67. | Naxçıvan şəhərində müasir texnologiya əsasında işıqlandırma sistemlərinin və lampalarının istehsalı sahəsinin yaradılmasının dəstəklənməsi | 2014-2015-ci illər | İqtisadi İnkişaf Nazirliyi |
| **Kənd təsərrüfatının infrastruktur təminatı** | | | |
| 68. | Aqroservis xidmətləri şəbəkəsinin genişləndirilməsi, “Naxçıvan Aqrolizinq” ASC-nin maddi-texniki bazasının möhkəmləndirilməsi | 2014-2015-ci illər | “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti |
| 69. | Naxçıvan şəhərində Nəzarət-Toksikologiya, Bitkilərin Karantin Ekspertizası və Torpaq Analizləri laboratoriyalarının yaradılması | 2014-2015-ci illər | Kənd Təsərrüfatı Nazirliyi |
| 70. | İxtisaslaşmış “Fermer Mağazası”nın və “Yaşıl Market”in yaradılması | 2014-2015-ci illər | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Naxçıvan Şəhər İcra Hakimiyyəti |

## Ötən ilin yekunları müzakirə edilmişdir

Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatında 2013-cü ilin yekunları və 2014-cü ildə qarşıda duran vəzifələrlə bağlı hesabat yığıncağı keçirilmişdir. Tədbiri təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Rizvan Məmmədov açaraq geniş məruzə ilə çıxış etmişdir. Bildirilmişdir ki, Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatı hesabat ilində partiyanın yaradıcısı, ulu öndərimiz Heydər Əliyevin ideyalarının həyata keçirilməsində partiya üzvlərinin siyasi fəallığının artırılması üçün ideoloji fəaliyyətini ön plana çəkmiş, partiyanın Nizamnamə və Proqramının müddəalarının yerinə yetirilməsi üçün təşkilatçılıq işini genişləndirmiş, bu istiqamətdə məqsədyönlü tədbirlər həyata keçirmişdir.

Qeyd olunmuşdur ki, 54 ərazi partiya təşkilatında 3361 həmfikrin olduğu YAP Şahbuz Rayon Təşkilatı ötən il də bölgənin ictimai-siyasi həyatında fəal iştirak etmişdir. Belə ki, “Heydər Əliyev ili” elan olunmuş 2013-cü ildə silsilə tədbirlər keçirilmiş, ümummilli liderin zəngin irsinin öyrənilməsi ilə əlaqədar kütləvi tədbirlər, idman yarışları, müsabiqələr təşkil olunmuşdur. Ölkəmizdə keçirilən prezident seçkilərində partiya üzvləri fəallıq göstərmişlər.

Təşkilat sədri onu da diqqətə çatdırmışdır ki, ötən il rayon partiya təşkilatı üçün müasir iş şəraiti yaradılmış yeni bina istifadəyə verilmişdir.

Bildirilmişdir ki, 2014-cü il muxtar respublikamızda “Muxtariyyət ili” elan edilmiş, həmçinin bu il muxtar respublikanın 90 illik yubileyinin keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalamışdır. Bu, təşkilat üzvlərinin qarşısında mühüm vəzifələr qoymuşdur. Həmin vəzifələrin yerinə yetirilməsi üçün iş planı tərtib olunmuş və icrasına başlanılmışdır.

Tədbirdə partiya fəalları Təmleyxa Cəbiyevin, Vüqar Muradovun, Xəyal Bağırovun, Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Nurəddin Quliyevin çıxışları olmuşdur.

**Xəbərlər şöbəsi**

## Gənclər Günü qeyd olunub

*Naxçıvan Dövlət Universitetində 2 fevral – Gənclər Gününə həsr olunmuş “Azərbaycan gəncliyi və müasir dövr” mövzusunda elmi-praktik konfrans keçirilmişdir. Konfransı giriş sözü ilə rektor, professor Saleh Məhərrəmov açmışdır.*

Konfransda universitet Tələbə Gənclər Təşkilatının sədri, doktorant Arzu Abdullayev “Azərbaycan gəncliyi və müasir dövr”, Tələbə Həmkarlar Təşkilatının sədri, hüquqşünaslıq ixtisasının III kurs tələbəsi Mətin Quluzadə “Tələbə-gənclik həmkarlar təşkilatı sıralarında”, Tələbə Elmi Cəmiyyətinin sədri, hüquqşünaslıq ixtisasının III kurs tələbəsi Ramazan Abdullayev “Universitet gəncliyi və elmi mühit” mövzularında məruzələrlə çıxış etmişlər. Məruzələrdə vurğulanmışdır ki, müasir gənclik dövlət qayğısından bəhrələnərək ictimai-siyasi, iqtisadi və digər sahələrdə müstəsna rol oynayır. Tələbə-gənclər ölkədə aparılan siyasi, sosial-iqtisadi islahatlarda, təhsil quruculuğu sahəsində aparıcı qüvvə kimi öndə gedir, dünya miqyaslı tədbirlərdə ölkəmizi layiqincə təmsil edirlər.

Qeyd olunmuşdur ki, tələbə-gənclər bundan sonra da təhsildə böyük nailiyyətlər qazanmağa, ictimai-siyasi proseslərdə fəal vətəndaşlıq mövqeyi tutmağa davam edəcəklər.

Sonda Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə həvəskar rejissorlar üçün keçirilən “Gənc Azərbaycan” qısametrajlı film festivalında ikinci yerə layiq görülmüş universitetin fransız dili müəllimliyi ixtisasının III kurs tələbələri Aytən İsmayılovaya və Arzu Qasımovaya diplom və sertifikatlar təqdim edilmişdir.

**Mehriban SULTAN**

* * *

Dünən Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi Naxçıvan Dövlət Film Fondunda 2 fevral – Gənclər Günü münasibətilə tədbir keçirmişdir. Tədbirdə Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşları Pərvin Həsənov və Turac Ağaliyeva çıxış edərək ölkəmizdə gənclərə göstərilən diqqət və qayğıdan danışmışlar. Bildirilmişdir ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev həmişə gənc nəslə böyük qayğı göstərmişdir. Azərbaycanı gənclər ölkəsi, gəncləri ölkəmizin gələcəyini quracaq böyük qüvvə hesab edən ulu öndər gənclər siyasətini ölkənin prioritet istiqamətlərindən biri hesab etmişdir. Dahi rəhbərin gənclər siyasəti bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Məhz bu siyasətin mahiyyət və keyfiyyətcə yeni mərhələdə uğurlu davamının nəticəsidir ki, gənclərimiz böyük nailiyyətlərə imza atırlar.

Qeyd olunmuşdur ki, dövlət gənclər siyasəti muxtar respublikamızda da uğurla reallaşdırılır. Gənclərin sağlam mühitdə böyüməsi və vətənpərvər ruhda tərbiyə edilmələri, yüksək səviyyədə təhsil almaları, onların cəmiyyətdə layiqli yer tutmaları üçün ardıcıl tədbirlər həyata keçirilir. Muxtar respublikamızda gənclik mərkəzlərinin, kitabxanaların, mədəniyyət evlərinin, idman komplekslərinin gənc nəslin istifadəsinə verilməsi regionda sağlam və vətənpərvər gəncliyin yetişdirilməsinə xidmət edir.

Sonda ümummilli lider Heydər Əliyevin gənclərə qayğısından bəhs edən “Dünyaya pəncərə” adlı sənədli film nümayiş etdirilmişdir.

**Əli RZAYEV**

2 fevral Gənclər Günüdür

# Muxtar respublikada dövlət gənclər siyasəti uğurla həyata keçirilir

***Ölkəmizdə dövlət gənclər siyasətinin əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur. Ulu öndər Azərbaycana rəhbərliyinin bütün dövrlərində gənclərin problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə xüsusi diqqət yetirmiş, gənclər siyasətini müstəqil Azərbaycan dövlətinin mühüm fəaliyyət istiqamətlərindən birinə çevirmişdir.***



Naxçıvan şəhərində Şahmat Mərkəzi

1996-cı il fevralın 2-də Azərbaycan Gənclərinin Birinci Forumu keçirilmişdir. Forumda dövlət orqanlarının, gənclər təşkilatlarının və hər bir gəncin qarşısında duran vəzifələr müəyyənləşdirilmiş, gənc nəslin hərtərəfli inkişafı, problemlərinin həlli sahəsində təsirli tədbirlərin görülməsi bütün əlaqədar təşkilatların qarşısına əsas vəzifə kimi qoyulmuşdur. Forum keçirildikdən 1 il sonra – 1997-ci il fevralın 1-də ulu öndərin Sərəncamı ilə fevralın 2-si Azərbaycanda Gənclər Günü elan edilmişdir. Bundan sonra hər il fevral ayının 2-si ölkəmizdə “Gənclər Günü” kimi qeyd olunmuşdur.

Müstəqillik dövründə Azərbaycanda gənclərlə iş sahəsində həyata keçirilən tədbirlər silsilə xarakter almış, Gənclər və İdman Nazirliyi yaradılmış, gənclər sahəsində dövlət siyasətinin uğurla həyata keçirilməsi istiqamətində zəruri qanunvericilik bazası formalaşdırılmışdır. 1996-2002-ci illərdə ölkəmizdə “Gənclər siyasəti haqqında”, “Dövlət gənclər siyasəti haqqında”, “Bədən tərbiyəsi və idman haqqında”, “Gənc istedadlar üçün xüsusi təqaüdlər təsis edilməsi haqqında”, “Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında” qəbul olunmuş qanun, fərman və sərəncamlar gənc nəslin mütəşəkkil qüvvə kimi formalaşması, sosial problemlərinin həlli və məşğulluqlarının təmin olunması baxımından mühüm əhəmiyyət kəsb etmişdir. Xalqımızın işıqlı gələcəyi naminə gənclərə böyük ümidlər bəsləyən ulu öndər Heydər Əliyev deyirdi: ***“XXI əsr gənclərin əsridir. Biz yaratdığımız, qurduğumuz müstəqil Azərbaycanı gənclərə tapşırırıq. Bizim işimizi gənclər davam etdirməlidir. Gənclərin vəzifəsi Azərbaycanın dövlət müstəqilliyini qorumaq, Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesində fəal iştirak etmək, ölkəmizin iqtisadiyyatını, mədəniyyətini, elmini inkişaf etdirməkdir”.***

Bu gün ölkəmizdə dövlət gənclər siyasəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısı gənclərin vətənpərvərlik tərbiyəsinin daha da gücləndirilməsinə, onların məşğulluğunun təmin edilməsinə, sahibkarlıq fəaliyyətlərinə kömək göstərilməsinə, yaradıcı və istedadlı gənclərə, gənc ailələrə dövlət qayğısının artırılmasına, onların mənzil şəraitlərinin yaxşılaşdırılmasına, gənclərin dövlət quruculuğu işlərinə cəlb edilməsinə xüsusi diqqət və qayğı göstərir. Ölkə Prezidentinin qəbul etdiyi “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”, “Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı”, “Azərbaycan Respublikasında texniki-peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı” gənclərin dünyanın nüfuzlu ali məktəblərində təhsil almağa göndərilməsinə, onların yaradıcılıq potensialının üzə çıxarılmasına, intellektual səviyyəsinin yüksəldilməsinə, sosial problemlərinin həllinə mühüm töhfə vermişdir. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 7 iyul tarixli Sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı” isə ölkəmizdə həyata keçirilən gənclər siyasətinin uğurlu davamı kimi səciyyələnir.



Naxçıvan şəhərində “Gənclik” Mərkəzi

Muxtar respublikamızda da gənclər siyasəti uğurla həyata keçirilir. Bu məqsədlə yaradılan infrastruktur, göstərilən qayğı isə xüsusilə qeyd edilməlidir. Gənclərin muxtar respublikamızın ictimai-siyasi, iqtisadi və mədəni həyatında fəal iştirakı, sosial problemlərinin həlli gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq dövlət proqramlarının qəbul olunması, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənclərin irəli çəkilməsi və xidmətlərinin qiymətləndirilməsi, bütövlükdə, gənclərlə iş sahəsində həyata keçirilən tədbirlərin əsasını təşkil edir. Son illər muxtar respublikada “Gənclik” Mərkəzi, kitabxanalar, mədəniyyət evləri, ali təhsil müəssisələrində yeni tədris korpusları, məktəb binaları, olimpiya-idman kompleksləri, idman mərkəzləri və digər obyektlər tikilərək və ya əsaslı təmir olunaraq gənclərin istifadəsinə verilmişdir. Gənclərin asudə vaxtının səmərəli təşkili, yaradıcılıq potensialının üzə çıxarılması da daim diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 30 may tarixli Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı” uşaq və gənclərin yaradıcılıq potensialının inkişaf etdirilməsi baxımından mühüm əhəmiyyətə malik olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov gənclərin cəmiyyət həyatında mühüm rol oynadığını bildirərək demişdir: ***“Hər bir ölkənin gələcəyi cəmiyyətin ictimai-siyasi həyatında aparıcı rol oynayan gəncliyin əlindədir. Gənc nəslin sağlam ruhda böyüməsi, savadlı, yüksək mənəvi tərbiyəyə malik olması çox vacibdir”.***



Şərur Olimpiya-İdman Kompleksi

Bu gün muxtar respublikamızda gənclərin sosial müdafiəsinin və məşğulluğunun təmin edilməsi, yaradıcılıq axtarışlarının stimullaşdırılması, milli ruhda tərbiyəsi, hərbi-vətənpərvərlik işinin gücləndirilməsi və sağlam həyat tərzinin təbliği diqqət mərkəzindədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında” 2012-ci il 31 yanvar tarixli Fərmanı muxtar respublikamızda gənclərə göstərilən yüksək diqqət və qayğının daha bir ifadəsidir. Fərmana əsasən, Naxçıvan Muxtar Respublikası gənc istedadlarının “Qızıl kitab”ı təsis olunmuş, “Qızıl kitab”a adları yazılmış gənc istedadlar üçün təqaüdün verilməsi qaydaları təsdiq edilmişdir. Gənc istedadların xüsusi təqaüdə layiq görülməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 25 sentyabr tarixli Sərəncamına əsasən, incəsənət və idman sahələrində fərqlənən üç nəfər gəncin adı “Qızıl kitab”a salınaraq onlara müəyyən edilmiş miqdarda aylıq təqaüdün verilməsi təmin olunmuşdur. Eyni zamanda Ali Məclis Sədrinin 2012-ci il 29 mart tarixli Fərmanı ilə muxtar respublikada Gənclər Fondu yaradılmışdır. Bütün bunlar gənclərin cəmiyyətin aparıcı qüvvəsinə çevrilməsi istiqamətində atılan mühüm addımlardır.

Son illər muxtar respublikanın şəhər və rayonlarında olimpiya-idman komplekslərinin, idman mərkəzlərinin, uşaq-gənclər idman məktəblərinin, şahmat məktəblərinin, orta məktəblərdə idman zallarının və açıq idman qurğularının istifadəyə verilməsi gənc nəslin fiziki sağlamlığının qorunması və kütləvi bədən tərbiyəsinin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. Naxçıvan şəhərində yeni istifadəyə verilən Gənclər Mərkəzi isə gənclərin xüsusi layihələr vasitəsilə vahid bir mərkəzdə toplanması və asudə vaxtlarının səmərəli təşkili baxımından mühüm əhəmiyyətə malikdir.

**Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyi ilə əlaqədar 2014-cü il Naxçıvanda “Muxtariyyət ili” elan edilmişdir. Bu il hər bir gəncimiz Azərbaycanın və onun ayrılmaz tərkib hissəsi olan doğma Naxçıvanımızın çiçəklənməsi istiqamətində aparılan işlərdə daha yaxından iştirak edərək üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəkdir.**

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

# Şair-dramaturq Asim Yadigarın 60 illik yubiley tədbiri keçirilmişdir





*Yanvarın 31-də Naxçıvan Dövlət Musiqili Dram Teatrında şair-dramaturq Asim Yadigarın 60 illik yubiley tədbiri keçirilmişdir.*

Tədbir iştirakçıları teatrın foyesində ədibin kitabları və dövri mətbuatda işıq üzü görən məqalələrindən ibarət sərgiyə baxmışlar.

Yubiley tədbiri başlamazdan əvvəl qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikasının ictimai-mədəni həyatındakı fəaliyyətinə görə tanınmış şair-dramaturq Asim Yadigar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri Fərmanı ilə təltif olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri Fərmanı Asim Yadigara təqdim edilmişdir.

Naxçıvan Dövlət Universitetinin müəllimi, filologiya üzrə fəlsəfə doktoru, şair Xanəli Kərimli, AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Folklorşünaslıq şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Rafiq Babayev, şair İbrahim Yusifoğlu, AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun əməkdaşı Elxan Yurdoğlu çıxış etmişlər. Vurğulanmışdır ki, Azərbaycançılıq məfkurəsinin tərənnümü Asim Yadigar yaradıcılığının əsasını təşkil edir. Onun ədəbi külliyyatında Vətənimizi tərənnüm edən, xalqımızın dünənini və bu gününü əks etdirən şeir, poema və dram əsərləri xüsusi yer tutur. Şair təkcə ədəbi fəaliyyətlə məşğul olmur. O həm də Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri kimi ədəbiyyatımıza neçə-neçə gənc şair və yazıçıların gəlməsində, eləcə də muxtar respublikada ədəbi mühitin inkişafında yaxından iştirak edir.

Tədbirdə şairin şeirləri bədii qiraət olunmuş, dram əsərlərindən parçalar göstərilmiş, əsərlərinə bəstələnmiş mahnılar ifa olunmuşdur.

Sonda Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, şair-dramaturq Asim Yadigar ona göstərilən diqqət və qayğıya, yubiley tədbirinin yüksək səviyyədə təşkilinə görə minnətdarlığını bildirmişdir.

**Elnur KƏLBİZADƏ**

***Kapitan Cəfərov Elnur Cəfər oğlu 5 iyun 1978-ci ildə Şərur rayonunun Axaməd kəndində anadan olub. Cəmşid Naxçıvanski adına Hərbi Liseyi və Bakı Ali Birləşmiş Komandanlıq Məktəbini bitirib. 25 yaşında batalyon komandiri vəzifəsinə qədər yüksəlib. Hərbi xidmətini, əsasən, cəbhə bölgələrində olan hərbi hissələrdə keçib. 2014-cü il yanvar ayının 23-də cəbhənin Tərtər rayonu istiqamətində düşmənin atəşkəsi pozaraq mövqelərimizə girmək cəhdlərinin qarşısını alarkən qəhrəmancasına şəhid olub.***



# Ölümü öldürməyin adıdır şəhidlik!

Avtomobilimiz Kəngərli rayonundan keçəndə telefonuma zəng gəlir. Redaksiyadandır: “Budəfəki müsahiblərin ənənəvi və adi müsahib deyillər. Qarşındakı insanları bütün vəziyyətlərdə nəzərə al”. Bu, tapşırıq deyil, sadəcə olaraq, məsuliyyətin ikiqat olması ilə bağlı sadə bir xəbərdarlıqdır. Mən isə sakitcə cavab verirəm: – Mən öz ailəmin yanına gedirəm.

– Hara?

– Elnurgilə. Öz ailəmin yanına…

Dünyada təsadüflərin olduğuna heç zaman inanmamışam. Bu qədər təsadüf ola bilməz axı. Biz eyni adı daşıyırıq və mən sizin evinizdə sənə məxsus olan hərbi biletə nəzər salanda səhifələrin birində tanış hərbi hissənin adını görürəm. Hansı ki, bu hərbi hissənin adı, briqada komandirinin soyadı və imzası mənim də hərbi biletimdə yazılıb, adaş.

Doğulduğun rayona – Şərura çatıb rayon rəhbərliyindəki səlahiyyətli şəxslərdən biri ilə danışıram. Sizin evinizə necə gedə biləcəyimi soruşuram, ailənizi soruşuram. Cəmi 5 gün keçib ruhunun Vətən göylərinə çəkilməsindən, amma adına dastanlar yazılacaq qədər qəhrəmanlıqlarından danışır Minurə xanım. Və rayon mərkəzindən sizin evinizə doğru yola çıxarkən “Ailəsini tanıdıqdan sonra bu qəhrəmanlıqların gerçək olduğuna əmin olacaqsınız”, – deyir.

* * *

Qoruduğun Vətən torpağının sənə öz qoynunda yer verməsindən 5 gün ötməsinə baxmayaraq, həyatındakı hələ də çoxlu insanlar var. Onların gözlərində hüznlə qarışıq bir qürur da duyulur. Çünki şəhidliyin qüruru kədərindən böyükdür. Çünki ŞƏHİD adını qazanmaq üçün Vətəni, sadəcə, sevmək yetərli deyil. Onu canından çox sevməlisən, həm də hər bir qarışını sevməlisən. Böyük qardaşın Səbuhinin dediyi də budur. O, sənin bu Vətənin – Azərbaycanımızın hər bir qarışını necə sevdiyindən danışır. Atan isə danışa bilmir. Sadəcə olaraq, üçrəngli bayraq üzərində asılmış şəklinə baxır. Nədən danışım axı sənə? Oğlunun qəhrəmanlığından doğan qürurundanmı? Canından bir parçanı itirməsindən doğan kədərdənmi? Yaxşısı, uzun zaman xahişimdən sonra atan Cəfər kişinin öz əli ilə yazdığı və mənə verdiyi məktubu oxuyum sənə:

“Oğlum 14 il düşmənlə üzbəüz – cəbhə xəttində qulluq edib. Mən bir ata kimi bununla qürur duyuram. Onu dəfələrlə Hərbi Liseyə müəllim, cəbhə xəttində olmayan hərbi hissələrə göndərmək istəyiblər. Amma o, həmişə düşmənin qarşısında durmağı üstün tutub.

Onu axtarırdılar. Ermənilərin dəfələrlə mövqelərimizə girməsinin qarşısını almışdı. Və o bilirdi ki, onu axtarırlar. Amma qorxmurdu.

Mən Elnurun nəşinin Naxçıvanda yüksək səviyyədə qarşılanması ilə təsəlli tapıram. Mən əminəm. Əminəm ki, Elnur üçrəngli bayraq qədər əbədi yaşayacaq. Vətən sağ olsun”.

Bütün ömrüm boyunca mənim arxivimdə saxlayacağım ən dəyərli, ən qiymətli, ən müqəddəs əlyazma olacaq bu kiçik kağız parçaları. Çünki bu adi bir şəhid atasının məktubu deyil, bu, hələ bundan sonra neçə insanımızın, ailə başçılarımızın örnək alacağı bir atanın məktubudur. Bu, səni böyüdən atanın düşmənin canına lərzə salacaq, dostları qürurlandıracaq nəsihətidir, adaş. Bu, Azərbaycan kişisinə yaraşan dəyanətdir, ləyaqətdir!

Bəs gerçək Azərbaycan qadını necə? Gerçək şəhid anası necə? O ağsaçlı ananın qarşısında baş əyib, əlini öpərkən mənim də adımın Elnur olduğunu deyirəm ona. Çiyinlərimə toxunur və bütün Elnurlar, bu Vətəni qoruya biləcək hər bir insan mənim övladımdır deyir, anan. Uşaqlığından danışır. O zamandan ki, yeşik taxtalarından avtomat düzəldib məhəllədəki uşaqları sıraya düzüb addımlamışan, o zamandan ki, kəndinizin sakinlərindən birini hərbi formada görüb “Ana, mən də Qədim əmim kimi əsgər olacağam” demisən və ən nəhayətində, o zamandan ki, şəhidlik zirvəsinə ucalmamışdan bircə saat qabaq onunla danışıb “Hər şey yaxşıdır. Mənim vəzifəm əsgərimin arxasında olmaq yox, əsgərlərimdən öndə olmaqdır” demisən. Bacın Leyla üçün əvvəlki kimi qürur mənbəyisən.

Və bir insan daha... Sənin 6 yaşlı oğlun Məhəmmədi və 2 yaşlı qızın Nurayı sənə layiqli şəkildə böyüdəcək və tərbiyə edəcək qəhrəman bir Azərbaycan qızı. Səninlə bütün cəbhə boyu rayonları, qəsəbələri, kəndləri çiyin-çiyinə addımlayan, səninlə qürur duyan və övladlarına hələ də reallığı izah edə bilməyən bir Azərbaycan qızı. Oğlun Məhəmmədin ona verdiyi sualı eşitmək yetərlidir ki, bu qəhrəman bacımızın üzərindəki məsuliyyətin səviyyəsini anlayım. Oğlun evdə toplaşan adamları maraqla süzür və anasından soruşur: “Ana, düşmən evimizə yenə də güllə atır ki, hamımız bura yığışmışıq?” Bu suala cavab verə bilərikmi, verməyə gücümüz çatacaqmı? Bilmirəm...

Müşahidə etdiklərimdən və gördüklərimdən çıxardığım bir nəticə var. Düzdür, sən – onların atası şəhid olmusan. Amma onlar atasız deyillər. Onların Azərbaycan dövləti adında böyük, qüdrətli bir mənəvi ATAları var.

Bütün bunları indi burda – Şərur Şəhidlər Xiyabanında sənin məzarının başında sənə söyləmək üçün gəlməmişəm. Bilirəm ki, ruhun Vətən göylərindədir. Sən hamımızı – atanı, ananı, qardaşını, bacını, həyat yoldaşını, övladlarını, bu ölkənin hər bir vətəndaşına sahib çıxan dövlətimizi, sənin məzarını and yerinə çevirən insanlarımızı görürsən. Səni dinləməyə gəlmişəm, sadəcə. Əlimi məzarının üzərinə qoyarkən sənin ruhunun mənə pıçıldadığı cümlə isə baxışlarımızın, səsimizin, sözümüzün, qələmimizin və ən əsası silahımızın qorumalı olduğu müqəddəsliyi göstərir mənə – bu VƏTƏNİ! Mənə ruhunun pıçıldadığı cümlə isə belədir: “Bu torpağın uğrunda bir Elnur yox, min Elnur fəda ola bilər. Amma ölümü öldürüb şəhidlik və ya qazilik zirvəsinə qalxmaq üçün öncə düşməni öldürmək lazımdır. Vətən sağ olsun!”

✍ **Elnur KƏLBİZADƏ**

***Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan öz zəngin tarixi keçmişi ilə dünya sivilizasiyasının önündə gedir. Naxçıvan əlyazma mətnləri tarixi baxımdan çox əhəmiyyətli dərəcədə başqa əlyazma mətnlərindən fərqlənir. Bu əlyazma mətnlərinin araşdırılması milli-mənəvi, dini-əxlaqi, tarixi-keçmişi, ədəbi-mədəni, fəlsəfi və regional baxımdan geniş bir sahəni əhatə etdiyi üçün çox böyük əhəmiyyət kəsb edir.***

# Naxçıvan əlyazmaları xalqımızın milli-mənəvi sərvətidir

Coğrafi şəraitinə görə Araz çayının fövqündə dayanan Naxçıvan böyük strateji əhəmiyyətə malik olmuşdur. Sanki Araz çayı Naxçıvanın dünyada tanınma – işarə mərkəzi olmuşdur. Əlyazma mətnlərdə rast gəldiyimiz Araz çayının forma və məzmun baxımından necə çay olması barədə qısa da olsa, məlumat verilir. Şərqin tanınmış böyük alimi İbn əl-Vərdinin “Xəridət əl-əcaib və fəridət əl-qəraib” əsərindən nümunə olaraq Araz çayı haqqında verilmiş əlyazma mətninin bir hissəsinin Mahmud Şirvani tərəfindən tərcümə edilmiş cümləsinə nəzər yetirək: “Nəhr Araz Azərbaycandadır. Qayət bərk akar və içində böyük taşlar var, bəzi bəllidir, bəzi degil. Ol səbəbdən gəmi anda yürüməz. Bu, dəxi mübarək sudur, qərq olmuşların əksəri nicat bulmuşdur...” Araz çayı boyunca Naxçıvanın şəhər və kəndlərinin yerləşdiyi bir ərazidə tarixin zəngin arxiv materialları gizlənir. İstər osmanlı zamanının, istərsə də əvvəlki dövrlərin mənbələrində Naxçıvan diyarının şəhərləri kimi, Naxçıvan və Ordubadın adı qeyd edilir.

Naxçıvan əlyazma mətnlərinin ən böyük xüsusiyyəti ondan ibarətdir ki, bütün reallıqları özündə əks etdirir. İstər Atabəylər dövləti zamanına aid qiymətli, eyni zamanda ən zəngin əlyazma olan “Munisnamə” əsəri, istər Azərbaycan mədəniyyəti tarixində XIII-XIV əsrlərdə çoxcəhətli yaradıcılığa malik alim, şair və dövlət xadimi kimi tanınan Hinduşah Naxçıvaninin “Əs-Sihah əl-əcəmiyyə” əsəri və istərsə də XIX əsrin görkəmli nümayəndəsi Hacı Molla Məhəmməd Naxçıvaninin “Qürrətül-Əbsar” (“Gözlərin nuru”), “Dürrətül-Əbrar” (“Söylənilməmiş inci sözlər”), “Kəşkülü-nur” (“Nur qabı”), “Məzahir ən-nur” (“Nurların zahir olduğu yerlər”) və “Səhabəd-Dümu” (“Buludların göz yaşları”) kimi əsərləri bunun bariz nümunəsidir.

“Munisnamə” əsəri XII-XIII əsrlər Atabəylər dövlətinin iqamətgahında yazılan nadir əlyazma nüsxəsidir ki, əsli Böyük Britaniyadakı muzeylərdən birində mühafizə olunur. Əlyazmanın fotosurətinin Naxçıvana aid hissələri ana dilimizə tərcümə edilərək tədqiqata cəlb olunmuşdur.

Son dövrlərə qədər tədqiqatçıların diqqətindən yayınmış “əs-Sihah əl-əcəmiyyə” lüğəti Azərbaycan ərazisində azərbaycanlı müəlliflər tərəfindən tərtib edilmiş, ilkin dövrlərdə dilimizin leksikası haqqında məlumat verən qədim və hələlik, yeganə abidə kimi diqqəti cəlb edir. Farsca-türkcə ikidilli lüğət olan “əs-Sihah əl-əcəmiyyə”də 5117 fars sözünün müqabili kimi verilmiş türk mənşəli sözlərin təxmini sayı 10 minə yaxındır.

XIX əsr ictimai mühiti üçün səciyyəvi xarakter daşıyan Hacı Molla Məhəmməd Naxçıvaninin “Səhabəd-Dümu” əsəri fəlsəfi baxımdan olduqca böyük əhəmiyyət kəsb edir. İstər islam fəlsəfəsi nöqteyi-nəzərindən, istər insanlıq baxımından özündə qeyri-adi hadisələri canlandıran və insanları riqqətə gətirən əsər fenomenliyi ilə diqqəti cəlb edir. Bu baxımdan əsərin müəyyən hissələri tədqiqata cəlb edilmiş və iki cilddə “Hacı Molla Məhəmməd Naxçıvaninin “Səhabəd-Dümu” əsərində fəlsəfi düşüncələr” adlı monoqrafiya çap edilmişdir.

Naxçıvan əlyazma mətnlərinin digər bir xüsusiyyəti ondan ibarətdir ki, əlyazmalar müxtəlif xətlərlə yazılmış, sonralar onların katiblər tərəfindən üzü köçürülmüşdür.

**Səbuhi İBRAHİMOV**
***AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunun şöbə müdiri, dosent***

## Yeni nəşrlər

# Naxçıvan teatrının tarixini müxtəlif müəlliflərin qələmi ilə əks etdirən kitab




“Naxçıvan teatrı (Məqalələr, xatirələr)” – AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin qərarı ilə çap olunan yeni kitab belə adlanır. Kitabın tərtibçiləri AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru Fərman Xəlilov və Naxçıvan Muxtar Respublikası Arxiv İdarəsinin rəisi, tarix üzrə fəlsəfə doktoru Fəxrəddin Cəfərov, rəyçisi akademik İsmayıl Hacıyev, elmi redaktoru sənətşünaslıq üzrə fəlsəfə doktoru Ələkbər Qasımovdur.

Kitaba Naxçıvan teatrı ilə bağlı müxtəlif müəlliflərin məqalə və xatirələri ilk dəfə olaraq toplu halında daxil edilmişdir. Həmin məqalə və xatirələr teatrın keçdiyi yaradıcılıq yolu haqqında bütöv və sistemli təsəvvür yaratmağa yönəldilmişdir.

Əcəmi Nəşriyyat-Poliqrafiya Birliyində çapdan çıxan 296 səhifəlik kitabda Rzaqulu Nəcəfovun “Cəlil Məmmədquluzadə və Azərbaycan səhnəsi”, Əliqulu Qəmküsarın “Sənayeyi-nəfisə”, Rza Təhmasibin “Ölülər Naxçıvanda”, Əziz Şərifin “Yenə “Ölülər” haqqında”, Abbas Zamanovun “33 il sonra”, Lətif Hüseynzadənin “Sabir və Naxçıvan teatrı”, İsa Həbibbəylinin “Cəlil Məmmədquluzadə və Naxçıvan teatrı” adlı məqalələri xüsusilə maraq doğurur. Görkəmli yazıçı və korifey sənətkarlarımızdan C.Məmmədquluzadə, Mirzağa Əliyev, Sidqi Ruhulla, Mirzə İbrahimov, Səməd Mövləvi və başqalarının Naxçıvanda teatr tarixi ilə bağlı xatirələri də seçilərək kitaba daxil edilmişdir.

Kitabın izahlar və qeydlər bölməsində toplanmış məqalələrin saxlanıldığı fondlar, çap olunduğu mətbu orqanlar, məqalələrdə qeyd olunan tarixi məkanlar, şəxslər haqqında da oxuculara geniş informasiya verilir. Qeyd edək ki, kitaba daxil edilmiş materialların bir qismi ilk dəfə olaraq çap edilmişdir. Kitab mədəniyyət tariximizin öyrənilməsi üçün dəyərli mənbələrdən biri hesab oluna bilər.

✍ **Türkan HÜSEYNLİ**


**Naxçıvan Muxtar Respublikası İqtisadi İnkişaf Nazirliyi**

*2014-cü il üçün kotirovka elan edir*

*1. Dəftərxana ləvazimatlarının satın alınması*
*2.Təsərrüfat mallarının satın alınması*

Kotirovka 5 fevral 2014-cü il tarixədək qəbul edilir. Sorğuda aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, texniki, iqtisadi və maliyyə imkanlarına malik olması göstəricilərinə üstünlük veriləcəkdir. Kotirovka zərfi 7 fevral 2014-cü il tarixdə saat 11⁰⁰-də Naxçıvan Muxtar Respublikası İqtisadi İnkişaf Nazirliyində açılacaqdır.

***Əlaqələndirici şəxs: Rasim Hacılı***
***Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 6***

**“Naxçıvan Türk Liseyi” Məhdud Məsuliyyətli Cəmiyyəti**

*2014-cü il üçün kotirovka elan edir*

*Ərzaq və tərəvəz məhsullarının satın alınması*

Kotirovka 3 fevral 2014-cü il tarixədək qəbul edilir. Sorğuda aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, texniki, iqtisadi və maliyyə imkanlarına malik olması göstəricilərinə üstünlük veriləcəkdir. Kotirovka zərfi 5 fevral 2014-cü il tarixdə saat 11⁰⁰-də açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Əlaqələndirici şəxs: Rasim Eynalov, telefon: 545-06-96***

**Kəngərli Rayon Təhsil Şöbəsi**

*2014-cü il üçün kotirovka elan edir*

*Dəftərxana ləvazimatlarının satın alınması*

Kotirovka 5 fevral 2014-cü il tarixədək qəbul edilir. Sorğuda aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, texniki, iqtisadi və maliyyə imkanlarına malik olması göstəricilərinə üstünlük veriləcəkdir. Kotirovka zərfi 6 fevral 2014-cü il tarixdə açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Əlaqələndirici şəxs: Amar Qasımov***
***Telefon: 548-07-32***


**Allah rəhmət eləsin**

AMEA Naxçıvan Bölməsinin Rəyasət Heyətinin üzvləri və Mərkəzi Aparatın əməkdaşları iş yoldaşları Nuray Əliyevaya və Əhməd Qarayevə, əzizləri **SABİRƏ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin kollektivi fakültənin dekanı Bəhruz Məmmədova, qayınatası **YUSİF MƏMMƏDOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**ŞƏRQ qapısı**
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və “Əcəmi” NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 125